# SENZURAYA QAYITMAQ... OLMAZ



*Şəddad CƏFƏROV,*
*iqtisadiyyat üzrə fəlsəfə doktoru*

Azərbaycanda uşaq ədəbiyyatının nəşri üçün senzuradan yox, idarəçilikdən düzgün istifadə etmək lazımdır və ya idarəçilik düzgün qurulmalıdır.

Müstəqillik təkcə siyasi idarəetmənin, ölkənin və xalqın azadlığı deyil, həm də düşüncənin azadlığıdır. Bütün bunların hamısı birlikdə dövlətin müstəqilliyi anlamını yaradır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra çətinliklə də olsa öz azadlığını qoruyub saxlayıb. Siyasi idarəetmədə, iqtisadiyyatda... bir sıra köklü dəyişikliklər aparır. Azərbaycan dövləti öz vətəndaşlarının mənəvi azadlığını təmin etmək üçün də mühüm demokratik islahat tədbirləri görüb. Bunlardan ən mühümü bəlkə də mənəvi mühitimizin dirçəlişi naminə ən üstün tədbir senzuranın ləğv edilməsi olub. Çünki insanların azad düşüncəsini təmin etmək üçün söz, fikir azadlığı birinci şərtdir.

Dövrün şahidlərinin yaxşı yadındadır, o cümlədən, mənimdə... yazıçının, jurnalistin hər hansı bir mədəniyyət xadiminin rejissorun, ssenaristin... qoyulan tələblərdən cüzi olaraq kənara çıxması az qala müəllifin tale işinə çevrilir, həyatını zəhərə döndərirdi. Müxtəlif tədbirlərdə tənbeh olunur, kəskin şəkildə tənqid edilir. Azad düşüncə cəhdi göstərmiş müəllif az qala xalq düşməni hesab olunurdu. İndi bütün bunlar keçmişdə qalıb. Xalqımız öz azadlığına qovuşub. Fikir plüralizminə kifayət qədər şərait yaradılıb. Ancaq kimsəyə sirr deyil ki, ədəbi düşüncə materiallarında, mətbuatda, eləcə də sosial şəbəkədə xaotik bir vəziyyət yaranıb. Hətta elələri var ki, ağına, bozuna baxmadan təhqirə yol verir. Dövlətin siyasi əsaslarına zərbə vurmaq üçün təxribat xarakterli, xəyanətkar cəhdlər də edirlər. Bütün bunların qarşısı dəqiq düşünülmüş və düzgün seçilmiş metodlarla alınmalıdır.

Bu yaxınlarda iki müəllifin təkliflərini oxudum. Onlar Sevinc Nuru qızı və Reyhan Yusif qızı adlı müəlliflərdir. Bildiyimə görə bunlar kifayət qədər istedadlı müəlliflərdir. Onlar ədəbi mənəvi mühitin problemlərini qaldırır və qaldırdıqları problemin həlli üçün müəyyən yollar, vasitələr təklif edirlər. biz cəmiyyətdə ziyalıların vacib problemləri qaldırmasını alqışlamalıyıq, təqdir etməliyik. Təbiidir ki, mən də ziyalıların cəmiyyətin qarşılaşdığı problemləri, xüsusilə mənəvi problemləri qaldırmalarını, bu problemləri həll etmək üçün müəyyən yollar təklif etmələrini alqışlayıram; problemlərin həlli yollarına gəldikdə isə bu, daha çox diqqət və ehtiyyatlılıq tələb edən tərəfdir. Adlarını çəkdiyim müəlliflər uşaq ədəbiyyatı üçün müəlliflərin məsuliyyətini təmin etmək məqsədi ilə senzura tətbiq edilməsi təklifini irəli sürürlər.

Uşaq ədəbiyyatı üçün senzura tətbiqi məsələsi ilk baxışdan bir qədər cəlbedici görünə bilər. Amma məsələnin daha dərin kökləri var. Bu gün uşaq ədəbiyyatı üçün senzura tətbiq edilər, sabah ədəbiyyatın digər janrlarına müəyyən hədlər, qadağalarla müşayiət olunan senzura istəkləri meydana çıxacaq. Daha sonra mətbuatda senzura, digər kütləvi informasiya vasitələri üzərində senzura... Beləliklə, biz azad düşüncəyə senzura tətbiq etmiş olacağıq. Çoxlarımızın yadındadır; 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman ölkəmizdə plüralizmin bu günkü, və sabahkı inkişafının qarantına çevrildi.

Fərman kifayət qədər vaxtında verilmişdi. Həmin fərmanla senzura siyasəti dayandırıldı, bu fərmandan sonra Azərbaycanda söz azadlığı, azad mətbuat modeli, mühüm inkişaf istiqamətinə qədəm qoydu.

Bu gün Azərbaycanda mətbuatın genişliyi və çoxşaxəliliyi insanların mənəvi tələbatını məhz senzuranın olmamasına görə qismən də olsa ödəyir. Ona görə qismən deyirəm ki, insanların mənəvi təmiatı çox böyükdür. Biz xalqımızın mənəvi inkişafını tərəqqi etmiş dünya ölkələrinin, xalqlarının səviyyəsinə qaldırmalıyıq. Məhz senzuranın ləğvi ilə mədəniyyətin və incəsənətin müxtəlif sahələrində geniş profilli inkişaf təmin edildi. Ədəbi və bədii düşüncə sərhədlərini genişləndirdi. İndi belə bir vaxtda Sevinc Nuru qızı yazır ki, uşaq ədəbiyyatı sahəsində güclü bir senzuraya ehtiyyac var. Eləcə də, digər istedadlı bir gənc Aygün Bünyadzadə də sanki senzuranı tələb edirmiş kimi deyir ki, uşaq ədəbiyyatının nəşri sahəsində senzuranın yaradılması hava, su kimi lazımdır.

Bu müəlliflərin intellektinə, istedadlarına, polemika imkanlarına mənim heç bir iradım yoxdur. Ancaq onlar deyəndə ki, "uşaq ədəbiyyatının nəşri sahəsində ciddi senzuranın formalaşdırılması qarşımızda duran ən böyük vəzifədir" bu, məndə bir daha deyirəm ki, təəccüb doğurur (Bax: "Bakı xəbər" qəzeti, 15-17 avqust, N134, (4565)). Bəs bu müəlliflərin unutduğu nədir?

Bəli, mən belə düşünürəm ki, senzura tələbi ilə çıxış edən müəlliflər unudurlar ki, vəziyyəti düzəltmək üçün senzura istəmək, senzura arzusunda olmaq lazım deyil. Bu sahədə idarəçiliyi düzgün təşkil etmək lazımdır. Bu gün çapa hazırlanan nəşirlərin ideya yönümünə nəzarət yoxdur, bu doğrudur. Çünki təqdim olunan nümunəni çap üçün götürən nəşriyyat və mətbəənin yüksək hazırlığı olan mütəxəssisləri qəbul edilən nümunəni oxuyub rəy verməli və öz rəyləri üçün məsuliyyət daşımalıdırlar. Amma nəşriyyat və mətbəələrdə çox vaxt yüksək ədəbi təhsili olmayan, heç ədəbi təcrübəsi olmayan adamlar redaktor missiyasını yerinə yetirir, ya da bu işə formal baxırlar. Bu gün bu sahədə hərci-mərcliyi yaradan səbəblərdən biri də nəşriyyat və mətbəə açmaq üçün heç bir lisenziya tələb olunmur. Beləliklə, nəşriyyatlar profilə uyğun oldu - olmadı istədikləri ədəbiyyatı çap üçün müəlliflərdən qəbul edirlər. Sevinc Nuru qızı və Aygün Bünyadzadənin bu məqamda dedikləri ilə razıyam ki, hər kəs məsələnin yalnız maliyyə tərəfini fikirləşir.

Məsələnin belə kəskin şəkil alması hər birimizi düşündürməlidir. Bəzi dövlət strukturlarında olan nəşriyyatların (məsələn, Mədəniyyət Nazirliyinin tabeliyində olan) fəaliyyəti tənzimlənmir. Axı, kitaba təkcə texniki oxu vasitəsi, poliqrafiya məmulatı kimi baxmaq olmaz.

Mən uzun illərdir ki, poliqrafiya sahəsində çalışıram. Poliqrafiyanın nəzəri və praktiki tərəfləri ilə bağlı bir çox problemlərin həllinə çalışmışam. Bu sahədə bir çox tədqiqatlar aparmışam. Bilirəm ki, hər hansı bir kitab müəllif, poliqrafiya mütəxəssisi, elmi-texniki, ədəbi-bədii redaktorların birgə əməyinin bəhrəsidir. Kitabı yaradanların hər birinin yeri, vəzifəsi nəşrdə dəqiq olmalıdır. Kitabı araya, ərsəyə gətirən və bu mühüm işdə çalışan hər kəs, yəni müəllif, bədii və texniki redaktorlar, rəyçilər... hər kəs öz işinə görə məsuliyyət daşımalı, yeri gələndə cavab verməlidirlər.

Burada bəzi məqamlara da işıq salmaq istərdim. Azad fikir, söz imkanı qazanmış hər bir düşüncə adamı öz kitabını yaza bilər. bir növ ictimai baxış kimi rəyçiyə, redaktora təqdim olunan kitab. Müxtəlif yönümlərdən təhlil edilməlidir; nümunə nə dərəcədə əxlaqi, mənəvi dəyərlərimizə cavab verir. Milli, mənəvi tələbatları təmin edirmi? On görə də rəyçilərin, redaktorların nüfuzunu, ictimai rəyə təsir imkanlarını artırmaq, onların maddi tələbatlarını təmin etmək, müəlliflə sövdələşmələrinin qarşısını almaq kimi məsələlər təkcə fərdi şəxslərlə məhdudlaşmır. Eləcə də, təkcə ideoloji mahiyyət daşımır. Düşünürəm ki, bu mühüm, dövləti maraqlandıran məsələdir. Nəsillərin düşüncəsini düzgün istiqamətdə formalaşdırmaq baxımından, həm də strateji məsələdir. Ona görə deyirəm ki, bütün bunlar kompleks halda həll olunmalıdır. Bu məsələləri senzura ilə həll etmək yalnız inzibatçılıq olardı və bu da düzgün deyil.

Bütün hallarda söz azadlığı qorunmalıdır, çünki söz azadlığı cəmiyyət və dövlət, ictimaiyyətlə vətəndaşlar, insanlarla hakimiyyət strukturları arasında bir növ əlaqələndirici, bağlayıcı həlqə missiyasını yerinə yetirir. Ona görə də yazılı və elektron mətbuata (eləcə də digər kütləvi informasiya vasitələrinə) yeni dövrdə sadəcə informasiya vermək, marifləndirmək, əyləndirmək vasitələri kimi baxmaq olmaz. Bu gün bütün dünyada dördüncü hakimiyyət hesab olunan mətbuat və digər kütləvi informasiya vasitələri (eləcə də sosial şəbəkələr, saytlar...) cəmiyyətdə nəzarətçidir, maarifçidir, tənqidçidir, müdafiəçidir və digər bir çox funksiyaları da özündə birləşdirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə prezidenti demişdir: "Bütövlükdə söz və informasiya azadlığı ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib məsələlərdir". Dövlətimizin başçısı cəmiyyətdə fikir prüalizminin təmin edilməsinə və eləcə də, müxalif düşüncənin özünü ifadəsinə xüsusi diqqət yetirir. Hər fikirə, düşüncəsinə görə kimsənin basqıya məruz qalmaması üçün ayrı-ayrı vaxtlarda, müxtəlif tədbirlərdə dəqiq və aydın mövqe nümaiş etdirir. Bu gün Azərbaycan digər postsovet məkanındakı ölkələrlə müqayisədə söz azadlığı sahəsində böyük nailiyyətlər əldə edib. Təqdir olunan, etiraf olunan inkişaf yolu keçib. Belə bir azad şəraitdə hər bir yazar, hər bir müəllif özünün mənəvi məsuliyyətini unutmamalıdır, ona görə də bütün informasiya vasitələrində ( uşaq kitabları da bura daxil olunur) milli-mənəvi maraqların qorunması hər bir yazar üçün mənəvi məsələ olmalıdır.

Bu məsələləri şərh edərkən və bu sahədə çalışan və kifayət qədər təcrübəsi olan mütəxəssis kimi qeyd etməyi özümə borc bilirəm ki, müəlliflərlə birgə biz də, yəni nəşriyyat və mətbəə işçiləri də milli maraqlarımızın qorunmasına çalışmalıyıq.

Bir qədər keçmişə də nəzər salmaq istərdim. Vaxtı ilə Mətbuat Nazirliyinin strukturlarına daxil olan nəşriyyatlar vardı: "Azərbaycan", "Azərnəşr", "Maarif", "Yazıçı" və "Gənclik"... nəşriyyatların adlarından da bilinirdi ki, Azərbaycan" nəşriyyatı əsasən qəzet və jurnalların nəşrini həyata keçirir, "Azərnəşr" siyasi ədəbiyyatı, "Maarif" nəşriyyatı dərslik və dərs vəsaitləri, "Yazıçı" nəşriyyatı bədii ədəbiyyatı, "Gənclik" nəşriyyatı isə uşaqlar və yeniyetmələr üçün kitabların nəşri ilə məşğul olurdu.

Beləliklə, hər bir nəşriyyat profilinə uyğun ədəbiyyatın nəşri üçün ixtisaslaşmışdı. Bu da imkan verirdi ki, mütəxəssislər problem yaradacaq səhvlərə yol verməsinlər. Gördükləri işin şərəfini uca tutsunlar. Çünki nəşriyyatlarda sifariş üçün qəbul olunan ədəbiyyatın profilinə uyğun redaktorlar çalışırdı. Onların hər biri öz sahəsi üzrə bir neçə onilliklərlə işləmiş və həmin sahənin bacarıqlı mütəxəssislərinə çevrilmişdi. Məlum tarixdir ki, Mətbuat Nazirliyi ləğv olundu, bir növ mətbuata mənəvi məsuliyyət daşıyan qurum yaradıldı: Mətbuat Şurası adında. "Azərbaycan" nəşriyyatı Respublika Prezidentinin Rəsmi İşlər İdarəsinin tabeliyinə verildi. "Azərnəşr", "Gənclik" və "Maarif" nəşriyyatları Mədəniyyət Nazirliyinin müvafik strukturuna tabe edildi. Qalan nəşriyyatlar və mətbəələr isə özəlləşdirildi.

Təəssüflə qeyd edirəm ki, bu nəşriyyatlar öz funksiyalarını yüksək səviyyədə yerinə yetirə bilmir. Çünki hər hansı bir nəşriyyat üç-dörd nəfərlə bütün mənəvi məsuliyyəti öz üzərinə götürən qurum kimi normal fəaliyyət göstərə bilməz. Hətta bu nəşriyyatlara yuxarı icra orqanlarının nəzarəti də müəyyən keyfiyyətdə deyil, səbəb də odur ki, yüksək hazırlıqlı sənətkar yoxdur.

Bir-iki məqam da var. Hər hansı bir nəşriyyatın, hər hansı bir kitabı götürüb nəşr etməsinə məhdudiyyət yoxdur. Nəşriyyatların mətbuat şurası ilə əlaqəsi də yoxdur. Beləliklə, nəşriyyatların işini istiqamətləndirən, ona nəzarət edən bir qurum da yoxdur. Mətbuat Şurası isə yalnız qəzetlərdə çalışan jurnalistlərlə əlaqə saxlayır. Əlbəttə, bu da dar çərçivədə. Hətta ayrı-ayrı əlamətdar günlərdə mətbuat şurası bir qurp jurnalistlərlə yığışıb bayram keçirir. Bir sözlə, Mətbuat Şurası dedikdə ancaq qəzet başa düşülür. Yaxşı olar ki, nəşriyyatlar, mətbəələr və bu tipli qurumlar da Mətbuat Şurasında təmsil olunsun.

Düşünürəm ki, Mətbuat Şurasının fəaliyyət sahəsi genişlənməlidir. Mətbuat Şurası öz hüquqlarını və strukturunu genişləndirsə, mətbu qurumların (Qəzet, jurnal, nəşriyyatlar, mətbəələr, mətbuat ticarəti...) hamısını özündə ehtiva etsə, və ehtiva etdiyi sahələrə heçolmasa mənəvi məsuliyyət daşısa, onda uşaq ədəbiyyatının nəşrinə də senzura gərək olmayacaq.

Və sonda bir daha qeyd edirəm. Hər bir kitabın redaktoru qəzet və jurnal redaktorları kimi redaktə etdiyi əsərə görə məsuliyyət daşımalıdır.

*2020*